# EKOLOJİ ŞÜURUN FORMALAŞMASINDA QAVRAYIŞ MƏSƏLƏLƏRİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

**Zeynəb Həcəmova**

*AMEA-nın Rəyasət Heyəti, Bakı*
*hecemova7@gmail.com*

**Azərbaycanın eko-siyasi məsuliyyəti.** Hər bir xalqın böyüklüyü onun dar gündə arxalana bildiyi böyük şəxsiyyətlərlə ölçülür. Məhz biz də bir xalq olaraq bu gün fəxrlə deyə bilərik ki, Azərbaycanın yüksəlişə gedən yolda əminliklə addımlamasını təmin edən dahi Lider Heydər Əliyev fenomeni və onun siyasi ideyalarını uğurla davam etdirən Azərbaycanın siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının

Prezidenti İlham Əliyevdir. Bütün ömrünü canından çox sevdiyi xalqına, doğma Azərbaycana bağışlayan Prezident Heydər Əliyevin adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır [5]. Ana təbiətə olan milli təəssübkeşlik və Vətən sevgisinin bariz nümunəsidir ki, Ölkə Başçımızın apardığı uğurlu siyasət sayəsində Azərbaycanda ekoloji durum dövlət qayğısı ilə əhatə olunur. Respublikada ekoloji durumun yaxşılaşması ilə bağlı Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan təməl möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən daha da möhkəmləndirilir [6]. Heç kəsə sirr deyildir ki, Azərbaycan qlobal əhəmiyyətli ekoloji problemlərin həllində regional və beynəlxalq səviyyədə geniş fəaliyyət göstərir [3]. O cümlədən, ölkənin iqtisadi potensialı artdıqca işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların və ətraf mühitin mövcud vəziyyəti araşdırılaraq, məhv edilmiş ekosistemlərin bərpası üzrə proqramların icrası və təbii resursların ölkə iqtisadiyyatına reinteqrasiyası üzrə tədbirlər həyata keçirilir. Təəssüflə qeyd edirik ki, Qarabağ və onun ətrafındakı rayonların uzun müddət işğal altında saxlanılması nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulmuş, ümumilikdə yeraltı və yerüstü təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuşdur [4]. Azərbaycan ekoloji problemlərə qarşı həssas münasibət sərgiləyən ölkələr sırasında mühüm yer tutur. Məhz beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərar vermişdir və Azərbaycan Respublikasında iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Ölkə Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar 25 dekabr 2023-cü il tarixli Sərəncam imzalamış [1], ölkə və beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi ilə əlaqədar müvafiq qurumlara göstəriş vermişdir. Sərəncamın icrasından irəli gələn işlərlə əlaqədar 22 yanvar 2024-cü il tarixində Azərbaycan Milli Elmlər Akademiyasında qəbul olunan Tədbirlər planı çərçivəsində AMEA-nın Akademiya şəhərciyində salınmış Nadir ağaclar parkında ağacəkmə aksiyası keçirilmişdir. Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri və digər aidiyyəti struktur bölmələri də iştirak etmişlər [2].

**Ekoloji şüur və tərbiyənin eko-psixoloji mahiyyəti.** İnsan ona təbiət tərəfindən verilən şüur və malik olduğu ekoloji və ictimai mədəni biliklər sayəsində təbiətlə qarşılıqlı əlaqə yaradır. Başqa sözlə desək, insanlar bütövlükdə inkişaf edərək, özünün mənəvi və əmək təcrübəsini yeni nəslə ötürməklə Yer üzərində öz mədəni mühitini yaradır. Mövzu ilə əlaqədar alman filosofu Karl Marksın maraqlı bir ifadəsi məlumdur: "Əgər mədəniyyət şüurlu surətdə istiqamətlənmirsə və kortəbii inkişaf edirsə onun özündən sonra qoyduğu iz səhra olacaq". Buradan məlum olur ki, insan əldə etdiyi ekoloji və ictimai biliklər sayəsində özü ilə təbiət arasında harmoniya yarada bilir. İnsanlar bir-birinə düşmənçilik hissləri bəsləyirlərsə, xüsusən də müharibə şəraitində yaşayırlarsa, təəssüflər olsun ki, bu harmoniyanı yaratmaq imkansız olur. Ətraf mühitlə bağlı hər bir problemin haradan qaynaqlanmasının təkzib edilməsi bir həqiqətə gətirib çıxardır − böhranın köklü səbəbi insanların təbiətlə qarşılıqlı münasibətlərdən irəli gəlmir, əsas problem onların bir-biri ilə necə qarşılıqlı əlaqələr qurmasındadır və nəhayət, insanlarla təbiət arasında bağlanmalı sülhün önündə insanların aralarında barış olmalıdır. Deməli, insanın və bütün canlıların sağ qalması üçün ən mühüm ekoloji şərt – Yer üzərində sülh olmasıdır [8, s. 23-24].

**İnsan–təbiət vəhdətinin sağlamlaşdırılması.** İnsan − Yer üzərində canlı orqanizmlərin yüksək inkişaf mərhələsidir [8, s. 190]. Qavrayışın ekoloji şüurun formalaşmasındakı rolu da məhz insan cəmiyyətinin inkişafının təbiətlə qarşılıqlı təmasda olması prinsipinə əsaslanır. İnsan–təbiət vəhdəti olmasa, kainat kökündən zədələnər və nəticədə məhv olar. Təbiət insanın estetik tələbatının təminat mənbəyi olduğundan onun mühafizə olunması da bütün bəşəriyyətin, xüsusilə də gənc nəslin tərbiyəsində prioritet istiqamətdir [10]. Dövrümüzdə gənc nəslə mənəvi zənginlik, əxlaqi-estetik tərbiyə, milli şüur və qürur hissinin aşılanması onların şəxsiyyətinin formalaşması üçün geniş imkanlar yaradır [11].

**Ekologiyanın qavrayış məsələləri.** Ekoloji şüur fəlsəfi, sosioloji, psixoloji və ekoloji aspektləri əhatə etdiyindən, insan təbiəti sevmədikcə müəyyən iqlim problemləri ilə üz-üzə qalır. Ekoloji şüur və təbiətin mühafizəsi problemi insan psixologiyası ilə mütənasib mövqedə yerləşir. Psixoloqların və ekoloqların gəldiyi belə bir qənaət vardır ki, ətraf mühiti dəyişdirmək mümkün olmadığı üçün insanların psixologiyasına müsbət mənada nüfuz etmək zəruridir, çünki ekologiyanı dəyişikliyə məruz qoyan da elə insan özüdür. İnsan elə bir varlıqdır ki, onun daim məlumatlanmağa ehtiyacı vardır. Məhdud bilik imkanları ilə bu dünyadakı mövcudluğunu davam etdirən insan təbiətə heç bir fayda vermir, əksinə, risk mənbəyi hesab

olunur. Qavrayışın ekoloji şüurun formalaşmasına göstərdiyi təsir gücü olduqca əhəmiyyətli qanunauyğunluqlara söykənir. İnsan ətraf mühiti bütünlükdə duyğu orqanları vasitəsilə qavrayır (havanın temperaturu, rütubət, külək və s.). Ətraf mühitin qavranılmasına həmçinin eşitmə, dad, səs-küy, su axını və işıqlandırma da daxildir. Lakin insan ətraf mühiti bu dünyadakı mövcudluğunun mənbəyi kimi dərk etməlidir. Təbiət hadisələrini düzgün qavramamaq insanların həyat keyfiyyətində təzahür edərək arzuolunmaz dəyişikliklərin tam dəyərli təsirləridir. Buradan məlum olur ki, insan ətraf mühitdə baş verən dəyişiklikləri düzgün qavramaq üçün müvafiq sahə üzrə maariflənməlidir. Belə qavrayış təcrübi əhəmiyyət daşıyaraq təlimat parametrlərini ehtiva etməli və yayılma hədəfi yüksək olmalıdır. İnsan daxili və xarici iqlim şəraitini simptomlarına görə deyil, nəticələrinə görə dəyərləndirməlidir. Məsələn, bəzən insanlar belə bir ifadə işlədirlər: "Mən küləkli havanı sevmirəm." və ya "Yağışlı hava əhvalıma mənfi təsir göstərir." Ekoloji şüurun psixoloji problemləri də məhz belə mühakiməli düşüncə tərzindən başlayır. Təbiət və təbii proseslər haqqında məlumatlılıq səviyyəsi insanın zəruri davranış tərzinə çevrilməlidir. İnsanın ətraf mühitə olan münasibəti məkan davranışı, məkan idrakı və məkan mədəniyyəti ilə tənzimlənir. İnsanın ekoloji tərbiyəsi təbiəti özünün ayrılmaz hissəsi kimi dərk etməsi ilə ölçülür. "Təbiət – bu mənəm!" şüarı ekoloji şüurun və tərbiyənin başlıca qanunauyğunluğudur. Özünü təbiətlə vəhdətdə hiss etməyən insan ona ziyan vurmaqdan da çəkinmir. Bu baxımdan qeyd edə bilərik ki, təbiətə olan münasibətimiz onu necə qavradığımızdan asılıdır. Ətraf mühitin kəmiyyət və keyfiyyət göstəricilərinin qavranılması insanın təbii ki, dünyagörüşündən də asılıdır. İnsanın dünyagörüşü onun təbiətə yönələn insani reaksiyalarında inikas edir. Unutmaq olmaz ki, bu dünyanın bir ahəngi vardır və burada bütün hadisələr təsadüfi olmayıb, müəyyən bir qanunauyğunluq əsasında baş verir. Dünyada gedən proseslər bir təkamül kimi dəyərləndirilə bilər [7, s. 12-13].

Ekoloji şüurun formalaşmasında qavrayışın sosial-psixoloji interpretasiyasını dinamik sistemlər əsasında vermək mümkündür. Qavrayış insanın ətraf aləmə olan reaksiyasını ifadə etdiyi kimi, təbiət də insanın ona olan münasibətindən təsirlənir. Məlum olur ki, qavrayış–insan–təbiət anlayışı ümumi bir dinamik sistemdir və bir-birindən ayrılmazdır. Qeyd edilən xüsusiyyət bizlərə ekoloji şüurun formalaşması prosesini həm deduktiv, həm də induktiv istiqamətdə təhlil etmək imkanı verir. Nəticə etibarilə qeyd edə bilərik ki, qavrayış təbiətin hərəki mexanizmidir. Qavrayışın ekoloji əhəmiyyəti də məhz bundadır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi internet səhifəsi. Sənədlər. Sərəncamlar [Elektron resurs] / Bakı, 25 dekabr 2023. https://president.az/az/articles/view/62737
2. Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi internet səhifəsi [Elektron resurs] / Bakı, 19 mart 2024. https://science.gov.az/az/news/open/28464
3. Azərbaycan. İDEA İctimai Birliyi [Elektron resurs] / Bakı, 2024. https://azerbaijan.az/related-information/240.
4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet səhifəsi [Elektron resurs] / Bakı, 2024. https://eco.gov.az/az/ekoloji-siyaset/azerbaycan-respublikasinin-ekoloji-siyaseti.
5. Hüseynov B. Heydər Əliyev və Azərbaycan təbiəti [Elektron resurs] / Bakı, 4 may 2023. https://sia.az/az/news/politics/1055022.html
6. Xalq qəzeti. Bizi yaşadan, sağlamlaşdıran təbiət [Elektron resurs] / Bakı, 21 may 2018. https://old.xalqqazeti.com/az/news/ecology/104982
7. Xəlilov S.S. Fəlsəfi yazmalar: Vəhdət / S.S.Xəlilov. – Bakı: Zərdabi nəşr MMC, 2023, 520 s.
8. Korobkin V.İ. Ekologiya. Dərslik (rus dilindən tərcümə) / V.İ.Korobkin, L.V.Peredelski. – Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2013, 434 s.
9. Rəşidqızı Ə. Ekoloji siyasətin əsas istiqamətləri (məqalə) [Elektron resurs] / Bakı, 25 sentyabr 2010. http://anl.az/down/meqale/adalet/2010/sentyabr/134125.htm
10. Ümumi ekologiya [Elektron resurs] / Bakı, 136 s. https://gsaz.az/ci/Kitabxana/umumi%20ekologiya.pdf
11. Vəliyeva G. Şagirdlərin ekoloji tərbiyəsi necə formalaşdırılmalıdır? [Elektron resurs] / Bakı, 29 dekabr 2010. https://hafta.az/sagirdlerin-ekoloji-terbiyesi-nece%0D%0Aformalasdirilmalidir--19149-xeber.html
12. Дерябо С.Д. Экологическая психология: диагностика экологического сознания / С.Д.Дерябо. – Москва: МПИ, 1999, 310 с.